**Bəzən bir şəhər təkcə şəhər olmur - bir ulusun yaddaşının davamı kimi çıxış edir - bəli, bəli, insan kimi çıxış edir, ağac-ağac, daş-daş, su-su, torpaq-torpaq və göyüzü danışır... Bizim Ağdam da belədir: dağıntısı da tarix kimi, dirçəlişi də yığvalımız kimi...**

**Təqvimimizin 20 noyabr günü 1991-ci ildə büründüyü qara libasdan beş il öncə ləyaqətlə çıxdı.**

**Bu gün 20 noyabr - Ağdam şəhəri gününü keçirən Azərbaycan, artıq 2020-ci ilin qalibindən də üstün - 2025-ci ilin bölgəsəl söz sahibidir. Ötən beş il içində təkcə torpağımızı bərpa etmədik; öz geosiyasi statusumuzu da yenidən qurduq. Ağdam bu quruculuğun həm başlanğıcıdır, həm simvolu, həm də gələcəyi.**



# Qara minalardan ağgünə...

Ağdama basdırdıqları saysız-hesabsız minaların tapılması, çıxarılması üçün uzun illər lazım olacağını hesablamış ermənilər, orada yaşayışın bunca tez baş tutacağını təsəvvür etməmişdi. Qara minalar qara günlər kimi keçmiş olur, ağ günlər çiçəkləyir Ağdamda!

İllər boyu "Qafqazın Xirosiması" adlandırılan bizim Ağdam, erməni vandalizminin ən dəhşətli üzünü yansıdırdı. İşğal illərinin Ağdamı, sadəcə dağıntıları göstərmirdi - mədəniyyətin, yaddaşın, bir ulusun nəfəsinin qəsdən boğulmasını nümayiş etdirirdi.

Prezident İlham Əliyev elə həmin gün Ağdam şəhərini bərpa edəcəyimizi, buna heç kimdə şübhə olmamasını duyurmuşdu.

Bax, bu gün artıq heç kimdə zərrəcə şübhə qalmayıb; o sözlər siyasi açıqlama yox, bərpa fəlsəfəsinin, quruculuq kulturolojisinin və inamının özüydü.

Necə deyərlər, Ağdamın bərpası - Azərbaycanın özünü yenidən yazması dəyərində bir hadisədir.

**Budur, 2025-ci ilə gələndə Ağdamın simasında artıq üç böyük həqiqət görünür:**

*Birincisi,*

**yeni şəhər - yeni iqtisadiyyat:**

Ağdam Sənaye Parkı bu gün ölkənin ikinci ən böyük sənaye mərkəzidir.

260 milyon manatı keçən yatırım və 900-dən artıq daimi iş yeri - bu artıq Qarabağda iqtisadiyyatımızın yeni, güclü başlanğıcıdır və qətiyyən təsadüfi layihələr seriyası deyil.

*İkincisi,*

**yeni şəhər - yeni mədəniyyət:**



Örnək versək, Ağdam Muğam Mərkəzinin açılışı bir mədəniyyət ocağının açılış təntənəsindən daha çox, muğamın öz vətəninə qayıdışının özüydü.

Bərpa olunan Cümə məscidi isə - mənəvi suverenliyimizin nişanəsinə çevrilib.

*Üçüncüsü,*

**yeni şəhər - yeni geosiyasət:**

Dirçələn, qara günlərdən silkinib çıxan Ağdama təkcə qardaş, dost dövlətlərin liderləri də gəlib, burada beynəlxalq tədbirlər keçirilib. Qara buludları dağılan Ağdam sanki anka kimi ağbuludlara, ağgünlərə iri, güclü qanad açıbg

Dövlət başçımızın 2025-ci ildə ardıcıl səfərləri, Qırğızıstanın məktəb hədiyyəsi, ECO Zirvəsinin Ağdamda nümayiş proqramı - bunların hər biri Ağdamın, ümumən Qarabağın yeni siyasi xəritəsini göstərməkdədir.

**Bu il - "Konstitusiya və Suverenlik İli" Azərbaycan üçün özəl ildir. Çünki bu il:**

*- Azərbaycan Mərkəzi Asiya əməkdaşlıq formatına tamhüquqlu üzv oldu;*

*- Türk dünyasının bütün siyasi xəritəsi yenidən Azərbaycan üzərində fokuslanır - Qəbələ Zirvəsi bunu bir daha sübut etdi;*

*- ECO-dan Türk Dövlətləri Təşkilatına, Avrasiyadan Güney Qafqaza qədər Bakı bölgələrarası altun körpüyə çevrilir.*

Bax, bu fonda, "Böyük Qayıdış"lı Ağdam, Qarabağ, bütün azad edilmiş ərazilərimiz özünəxas bir geosiyasi ismarıc daşımaqdadır.

90-cı illərdə Ağdam, Qarabağ işğal olunanda dünya susmuşdu...

2025-ci ildə Ağdam bərpa olunanda isə susan dünya bura gəlmə durumundadır...

Bu dönüş torpaq Qələbəsindən daha üstün hadisədir, əlbəttə; əlbəttə, tarixi ədalətin geosiyasi qayıdışına şahidlik edirik.

Müzəffər Aki Baş Komandan, Prezident İlham Əliyevin Ağdama səfərlərinin dərin anlamı və üfüqgenişliyi vardır.

Bəki, Ağdamın təməlqoyma tarixçəsi bu gün artıq müharibədən sonrakı güclü dövlətçilik salnaməsi kimi qəbul görməyi haqq edir. Bir neçə il içində dəmir yolu və avtovağzal kompleksi, "Ağdam Residence", Xıdırlı, Sarıcalı, Kəngərli kəndlərinin açılışları, Cümə məscidinin bərpası, Muğam Mərkəzinin tikintisi, Prezident səviyyəsində unudulmaz səfərlərg - bax, bunlar strateji yenidənqurmanın özüdür. Yəqin bu da bir təvafüqlükdür ki, Ağdamın Baş Planı təsdiqlənən ilk plan oldu.

Aydın görürük: Azərbaycan Ağdamı bərpa etməklə yalnız bu şəhəri və hətta, yalnız Qarabağı deyil, belə deyək, bütövlükdə öz gələcək iqtisadi-coğrafi mərkəzini qurur.

Bəs Ağdamın gələcək şəhər modeli necə şəkillənir?

2040-cı illədək Ağdamın 100 min nəfərlik çağdaş şəhərə çevrilməsi planı artıq kağızdan çıxıb tikinti-quruculuq hadisəsinə çevrilib. Bu, postsovet məkanında ilk belə miqyaslı yenidənqurma modelidir.

Ağdamın bərpası əhalinin qayıdışı, iqtisadiyyatın dirçəlişi, mədəniyyətin canlanması, bölgəsəl diplomatiyanın mərkəzləşməsi kimi (ən azı!) dörd strateji təbəqədə icra olunan dövlətçilik layihəsidir.

**Bu gün Ağdamda addımlayan hər kəs bilir ki, burada dağıntılar həm torpaqdan, həm zamanın içindən silinir və bununla belə yaddaşımızdakı yerini gərəyincə saxlayır...**

*Burada açılan hər yol kəndkəsəyə aparmır - qayıdan yaddaşa aparır...*

*Burada qurulan şəhər isə Azərbaycanla yanaşı, Türk dünyası üçün örnəkdir.*

Uzun sözün qısası,

**Ağdam artıq qayıtmır - Ağdam qaldığı yerdən davam və inkişaf edir.**

Yalnız güclü ulusun təmkini, iradə və Zəfər enerjisi belə şəhərlər yarada bilir.

Bu gün Ağdamın küçələri asfaltlanınca, siz elə bilin, o, bərpa edilmiş ədalətlə döşənirg

Bu gün Ağdamın evləri tikilincə, siz elə bilin, o, qayıdan insanların nəfəsi ilə qurulur, isinir...

Bu gün Ağdamın meydanları genişləndirilincə, siz elə bilin, o, Azərbaycanın yeni gücü ilə açılır...

**2025-ci ilin Ağdamı - Azərbaycan dövlətçiliyinin yeni, gur səsidir.**

Bu səs Ağdamın, Qarabağın və əlbəttə, Azərbaycanın özündən böyük məna-mahiyyətindən gəlir.

**Şəhidlər ölmədi, Vətən bölünmədi!**

**DÖVLƏTİMİZ ZAVAL GÖRMƏSİN!**

*Əkbər QOŞALI*

